# "Gözlə məni" filmində qəhrəman və mühit

Qəhrəmanların daxili aləmini, mənəvi zənginliyini artırmaq və hadisələrin qüvvətli verilməsi üçün yazıçı yaradıcılıq imkanlarından ustalıqla istifadə etmişdir. Professor Nərgiz Paşayeva düzgün qeyd edir ki, "Elçinin ədəbi qəhrəmanları nə sinfi mənsubiyyətləri, nə əmək prosesi ilə bağlılığı, nə də mübariz və döyüşkən xüsusiyyətlərinə görə yaradılmışdır - onlar sadəcə olaraq canlı insanlardır". Yazıçı öz ssenarilərində mühitin koloritini yaratmaqla qəhrəmanın daxili aləmini, psixoloji vəziyyətini həmin mühitin kontekstində aşkarlayır. İstər tarixi, istərsə də mənəvi-əxlaqi problemlərdən bəhs edən filmlərdə yazıçının əsas məqsədi şəxsiyyətin daxili aləminin mübhəm çalarlarını, insan taleyinin tarixi kontekstdən aşkarlanmasını, başqa sözlə, qəhrəman və mühit problemini aydınlatmaqdan ibarət olub.

Zamanın bütün keşməkeşləri, doğurduğu fəsadlar və mühitdəki insanların taleyi ictimai-psixoloji dərinliyi ustalıqla canlandırıldığından, həmin mühitin real mənzərəsi təbii və inandırıcılıqla təsvir olunduğundan həmin qəhrəmanlar yaddan çıxmır. Əsl qəhrəmanın simasında mühit, dövr və cəmiyyətin ən ümdə problemləri, ümumilikdə mənzərəsi əks olunur. Yüksək sənətkarlıqla yaradılmış qəhrəmanın simasında mühitin çox mühüm cəhətləri öz əksini tapır.

Filologiya elmləri namizədi N.Bayramova Elçin nəsrinin poetikasından bəhs edən monoqrafiyasında yazır: "Təsvir olunan mühit bəzi hallarda qəhrəmandan mənəvi cəhətdən aşağıda dayansa da, o, qəhrəmandan qüvvətlidir, ona görə də nəticədə qəhrəman əzilir və məğlubiyyətə uğrayır. Lakin qəhrəman həyatda məğlub olsa da, o, oxucunun nəzərində yüksəlir, mənəvi-əxlaqi keyfiyyətlərinə görə təqdirəlayiq hesab edilir".

Elçin "Gözlə məni" ssenarisini (1981) xalq yazıçısı İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" dramının motivləri əsasında qələmə almışdır. Filmin rejissoru Kamil Rüstəmbəyov, operatoru isə Zaur Məhərrəmovdur. Oxucularımıza məlumdur





***Bədii ədəbiyyatda olduğu kimi kino sənətinin əsasında da insan, onun çoxyönlü fəaliyyəti və mənəvi dünyası dayanır. Bədii əsərdən fərqli olaraq ekran əsərlərində insan xarakterinin bütün çalarları, daxili-mənəvi incəlikləri real hadisələr və görümlü səhnələrlə təsvirə gətirilir. Xalq yazıçısı Elçinin həm nəsr əsərlərində, həm də ssenarilərində ən səciyyəvi cəhətlərdən biri odur ki, o, psixoloji təhkiyənin əsasında mühitin bədii-psixoloji portretini yaradır. Onun ssenarilərində obrazların psixoloji ovqatı, daxili sarsıntıları ustalıqla tamaşaçıya çatdırılır.***

ki, görkəmli dramaturqumuz İlyas Əfəndiyev 1971-ci ildə yazdığı "Mahnı dağlarda qaldı" pyesində xalqımızın bəy-xan zülmünə qarşı azadlıq mübarizəsini təsvir etmişdi. Əsərdə 1917 - 1920-ci illərdə baş verən hadisələrdən söhbət açılır. Filmdə rejissor ən xarakterik cəhətləri ön plana çəkmişdir. Rejissor filmin baş qəhrəmanı Nicatın (R.Balayev) həyat yolunu mühitlə ilgili, hadisələrin ümumi axarında üzə çıxarır. Nicat heç bir çətinlikdən qorxmur. O, yoxsul və hüquqsuz olduğu üçün sevgilisi Şahnazla görüşə bilmir. Böyük bəyin (H.Turabov) xanımı Fəxrəndə (A.Pənahova) isə Şahnazı (T.Yandıyeva) qardaşı oğlu Yunis bəyə (Ş.Şəmsizadə) almaq istəyir. Nicat əvvəlcə Bahadurun (H.Məmmədov) dəstəsində, sonra isə bolşeviklərlə birlikdə fəaliyyət göstərir. Obrazın müxtəlif situasiyalarda aşkarlanan xarakteri sonrakı kadrlarda daha qabarıq görsənir.

Nicat (R.Balayev) yeni qurulmuş xalq hakimiyyətinin nümayəndəsi kimi öz kəndlərinə qayıdır. O, həm mübariz qəhrəman, həm də sevən və nifrət etməyi bacaran bir insandır. Onun sevgilisi Şahnaz (T.Yandıyeva) Böyük bəyin (H.Turabov) bacısıdır. Nicat Şahnazı nə qədər sevsə də, Böyük bəylə barışa bilmir, sonadək onunla mübarizə aparır.

"Gözlə məni" filminin ssenarisində Böyük bəylə Şahnaz arasındakı dialoqda Şahnazın daxili aləmi bir daha üzə çıxır. Burada qardaşla-bacı arasında olan təkcə səmimi münasibət yox, eyni mühitdə iki dünyagörüşü toqquşur.

"... Ancaq Şahnaz, bacım, inan ki, sənin ürəyindəki hisslər müvəqqəti aldanışdır. Başqa cürə ola bilməz. Sən onu (Nicatı) istəyə bilməzsən.

-Nə üçün?

- Çünki sən xan qızısan, ancaq o, Solaxay Həsənalının oğludu! Ovçu oğlu ovçudu! Gec-tez onsuz da bu fərq özünü göstərəcək.

Şahnaz yenə Xəznə qayasına tərəf baxdı və elə bil özü-özü ilə dərdləşdi.

-Bəs, sən Firəngistandan gələndən sonra saatlarla fikirlərin azadlığından danışırdın... Jan Jak Russodan, insanların bərabərliyindən, qardaşlığından danışırdın...

-Qardaşlığı, bərabərliyi bizim peyğəmbərimiz də buyurub. Ancaq peyğəmbər ağanın ağa, rəiyyətin də rəiyyət olduğunu rədd etməyib! Zəif ağıllar həmişə güclü ağıllara tabe olub. Güclü gücsüzə kömək eləməlidi və sən də yaxşı bilirsən ki, mən heç vaxt kömək əlimi məzlumdan əskik etməmişəm. Ancaq, bacım, bu o demək deyildir ki, rəiyyətlə ağa bir-birinin tay-bərabəridi".

"Nicatla dünyanın o biri başına getməyə hazır olan" Şahnaz (T.Yandıyeva) ərini dünyalar qədər sevsə də, öz zadəgan ailəsinə arxa çevirmir. Ssenaridə əsas dramaturji hadisə tarixi mövzuda cərəyan etsə də, obrazların şəxsi-psixoloji motivi ön plana çəkilir. Psixoloji ziddiyyətlərin qarşıdurması üzərində qurulan dramaturji struktur ilkin ədəbi materialı təkrarlayır.

Filmdə kinodramaturgiyanın nəzəri qanunlarını dərindən mənimsəmiş sənətkarın peşəkar üslubu aydınlığı ilə nəzərə çarpır. Böyük bəy surəti (H.Turabov) filmdə ən uğurlu surətlərdən biridir. Böyük bəy (H.Turabov) öz ağalığından xüsusi bir qürur duyur. Şahnazın (T.Yandıyeva) Nicatı (R.Balayev) azadlığa buraxdırmaq xahişinə Böyük bəy (H.Turabov) heç bir məhəl qoymur. Ürəyində bacısına nə qədər dərin məhəbbət bəsləsə də, onu daxilən duya bilmir: "Bu vaxt birdən-birə Şahnaza bir hönkürtü gəldi və qız hönkürə-hönkürə yerindən qalxıb özünü bəyin ayaqlarına atdı:

-Buraxdır onu, qardaş! Onu Qüdrətin umuduna qoyma!

Böyük bəy əvvəlcə özünü tamam itirdi:

-Dur ayağa! Qalx! - dedi və əyilib bacısını qaldırdı və bu gözlənilməz hərəkətin qəfilliyindən sonra özünə gələ-gələ:

-Gədənin birindən ötrü qardaşının da olsa, ayağına yıxılmaq sənə yaraşmaz. - dedi: - Kəndistana göndərirəm səni, bir neçə aylığa, get, dincəl orda!

Və Böyük bəy iti addımlarla şüşəbənddən çıxıb

pilləkənlərlə aşağı endi. Böyük bəyin kip örtmək istədiyi dodaqları səyriyirdi. Şahnaz isə elə-eləcə şüşəbənddə dayanıb uçunurdu". Nəhayət ərlə qardaş arasındakı uçurumu götürə bilməyən Şahnaz özünü öldürür. Filmdəki qəhrəmanların "öz daxili aləmi" var və səciyyəvidir ki, yazıçı hər bir obrazın mürəkkəb və ziddiyyətli xarakterinin açılmasına xüsusi diqqət yetirir. Bütün bu çalarlar isə ssenarinin bədii həllinə bir bütövlük gətirir, daha dəqiq desək, rejissor işinə yardımçı olur. Səciyyəvidir ki, rejissor filmin yaradıcı qrupunun başqa üzvlərinin də simasında özünə münasib həmfikir tapmış və gözəl aktyor ansamblı yaratmağa nail olmuşdur.

Elçinin bədii qəhrəmanlarının mənəvi-əxlaqi keyfiyyətlərinə xüsusi məqalə həsr etmiş görkəmli yazıçı Yusif Səmədoğlu yazırdı: "Elçin öz obrazlarının mənəvi kamilləşməsini, durulaşmasını və ya deformasiyasını, öz siqlətinin cəmiyyətin normaları ilə tarazlaşmasından irəli gələn "dağılmanı" poetik təhlil obyektinə çevirərkən, istinad nöqtəsi kimi seçdiyi mühitin adət və ənənələrini, dar çərçivəli qanunlarını, personajların oturuş-duruşunu, hətta geyimini belə nəzərdən qaçırmır. Məhz buna görə də, obrazla mühit arasında möhkəm bağlılıq, təbii vəhdət yaranır".

Nəsrində olduğu kimi, ekran əsərlərinin təcəssümündə də yenilik axtarışlarında olan Elçin qəhrəman və mühit problemini araşdırarkən dövrün çatışmayan cəhətlərini üzə çıxarmış və bu mühitin insanların mənəviyyatına, əxlaqına və psixologiyasına göstərdiyi mənfi təsirləri aşkarlamışdır. Təbii ki, ictimai mühitin xarakteri dərindən öyrənildikdə həmin mühitə təsir etmək də əsl sənət üçün asan olur. Filmdə dramatizmin həddindən çox verilməsi qəhrəmanları öz mühitləri ilə ziddiyyət şəraitində qarşılaşma məqamında aşkarlayır.

Rejissor K.Rüstəmbəyov, operator Z.Məhərrəmov, rəssam N.Zeynalov, bəstəkar A.Əlizadə filmin ümumi ideyasına uyğun uyarlı çalarlar əlavə etmişlər. Filmdə əlavə rollarda M.Dadaşov (Cabbar bəy), Ə.Abbasov (Həsənəli), F.Quliyeva (Gülgəz), M.Avşarov (Hümmət), S.Məcidova (Solmaz), Ş.Ələkbərov (Tahir) və başqaları çıxış edirlər.

Filmdə musiqi obrazların dramaturji tamlığına, rejissor fikrinin tam açıqlanmasına xidmət edir. Filmdə rəssam işi təbii olduğu qədər də çoxçeşidlidir. Operator Z.Məhərrəmovun müxtəlif görüş nöqtələrindən lentə köçürdüyü kadrlar emosionaldır, estetik baxımdan təsirlidir. Ssenari müəllifinin üslubuna uyğun poetiklik quruluşçu rejissorun gərgin zəhməti sayəsində meydana gəlmişdir. Ssenari müəllifinin və rejissorun bu filmdəki birgə əməyi onların uğurlu yaradıcılıq nailiyyətidir.

Tanınmış kinorejissor Q.Kozintsev yazırdı ki, "Film ssenarisi müstəqil ədəbi materialdır. Dramaturq romanın və ya hər hansı pyesin (bunun heç bir fərqi yoxdur) motivləri əsasında ssenari üzərində çalışarkən, əvvəla, bunu möhkəm yadda saxlamalıdır. İkincisi, bu zaman o xarakterlərini həqiqiliyi ilə təsvir olunan dövrün dəqiqliyinə riayət etməli, şübhəsiz kino sənətini incəliklərinə qədər bilməli, yazdığı ssenarini lentə köçürəcək rejissorla əlbir işləməli, onların hər ikisi sənət baxımından yekdil hərəkət etməlidir. Bütün bunların hamısı yaradıcıların böyük istedadı sayəsində mümkündür".

Filmin rejissoru ssenarinin ümumi ideyasını zövqlə işləmiş, onun fəlsəfi və həyati məzmununu geniş işıqlandırmağa müvəffəq olmuşdur. O, hadisələrə tarixi kontekstdən yanaşmış, mühitin əsas hadisələrini özündə ehtiva edən məqamları qabarıq nəzərə çarpdırmışdır. Filmdə qəhrəmanın mürəkkəb psixoloji dünyası mühitlə ilgili təcəssüm etdirilir. Ona görə də bu obrazlar baxımlı və yaddaqalan olur.

Ssenari müəllifinin, quruluşçu rejissorun bədii-estetik fikrini tamaşaçıya çatdırmaqda aktyor heyəti əsas komponentdir. Filmdə müxtəlif xarakterli, müxtəlif yaşlı, müxtəlif siqlətli obrazlar vardır. Rejssorun rol həvalə etdiyi aktyorların hamısı təbii oyunları ilə tamaşaçıları razı salır. Filmdə mənəvi problemlər əsasən qəhrəmanların taleyi fonunda aşkarlanır. "Gözlə məni" filmində müəlliflər tarixi mövzunun əsas məqamlarını sənətkarlıqla ekranda canlandıra bilmişlər. Burada hadisələr "öz axarı" ilə cərəyan edir, yazıçı duyumu ilə müşahidə olunur və yüksək bədii dillə ehtiva olunur. Bunun nəticəsidir ki, filmin oyatdığı estetik təəssürat təsirli və emosional olur. Filmin bütün strukturuna hopmuş sadəlik, bəşərilik, humanizm, şəhd-şirəli təhkiyə onun görümlülüyünə və estetik dəyərinə bir tamlıq gətirir.

**Sevda Nuru qızı,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dissertantı**